**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО - ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

*На правах рукописи*

**ВЕЛИЕВ ДЖЕЙХУН АМИН ОГЛЫ**

# ПОВЫШЕНИЕ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ ЛЁГКОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

**Специальность: 5312.01 – “отраслевая экономика”**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ-2017**

**АЗЯРБАЙЪАН РЕСПУБЛИКАСЫ КЯНД
ТЯСЯРРЦФАТЫ НАЗИРЛИЙИ**

**КЯНД ТЯСЯРРЦФАТЫНЫН ИГТИСАДИЙЙАТЫ
ЕЛМИ – ТЯДГИГАТ ИНСТИТУТУ**

*Ялйазмасы щцгугунда*

**VƏLİYEV CEYHUN AMİN OĞLU**

# AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTLİLİK QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5312.01 – “sahə iqtisadiyyatı”**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

**А В Т О Р Е Ф Е Р А Т Ы**

**БАКЫ – 2017**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Məmmədov Füzuli Əziz oğlu**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Alıyev İsa Hüseyn oğlu**
iqtisad üzrə fəlsəfə doktoru
**Musayeva Cəmilə Qəzənfər qızı**

**Aparıcı təşkilat:** Azərbaycan Kooperasiya Universiteti

Müdafiə "_____".______________2018-ci ildə saat _____ -da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N. Nərimanov rayonu, Az. 29, 8-ci köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ___________ 2017-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru: V. R . Rzayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Hər bir ölkənin inkişafı və iqtisadi təhlükəsizliyi ilk növbədə onun müxtəlif sahələrində fəaliyyət göstərən müəssisələrin iqtisadi vəziyyəti ilə müəyyən edilir. Bu baxımdan hazırkı mərhələdə Azərbaycan iqtisadiyyatının əsas prioritetlərindən biri dünya bazarında rəqabət qabiliyyətli sənaye sahələrinin, o cümlədən yüngül sənaye müəssisələrinin innovativ texnologiyalar əsasında inkişaf etdirilməsidir.

Ölkədə həyata keçirilən iqtisadi islahatlarla əlaqədar olaraq baş verən struktur dəyişiklikləri, daha az gəlirli yüngül sənaye müəssisələrinin fəaliyyət şərtlərinin dəyişdirilməsi iqtisadiyyatın bu mühüm sferasında daha təkmil tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır. Son illər yüngül sənaye müəssisələrinin fəaliyyətində qeyri-sabitliyi müxtəlif səbəblərlə, xüsusilə də yüngül sənaye sferasında iqtisadi, texnoloji və sosial mühitindəki qeyri-müəyyənliyinin mövcudluğu ilə əlaqələndirmək olar. Bu şərtlər daxilində ayrı-ayrı müəssisələrin fəaliyyəti ilə əlaqədar iqtisadi proseslərin öyrənilməsi və onların qiymətləndirilməsi yüngül sənaye müəssisələrinin fəaliyyətinə təsir edən amillərə sistemli yanaşmanı şərtləndirir.

Hazırda yüngül sənaye müəssisələrinin səmərəli fəaliyyətinin təmin edilməsi daxili mühit amilləri ilə yanaşı xarici amillərin də nəzərə alınmasını tələb edir. Çünki iqtisadiyyatda baş verən struktur dəyişikliklərinin dərinləşməsi iqtisadi və sosial problemlər yaratmaqla daxili bazarda idxal məhsullarının yerli istehsalı üstələməsinə gətirib çıxarır. Bu isə yüngül sənaye müəssisələrinin iqtisadi fəaliyyətinə mənfi təsir göstərməklə müəssisələrarası sosial-iqtisadi əlaqələrinə və inteqrasiya münasibətlərinə mənfi təsir göstərir.

Qeyd edilənlər nəzərə alınmaqla yüngül sənaye sferasında iqtisadi artımın təmin edilməsinə istiqamətləndirilməklə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Bu baxımdan ilk növbədə müəssisələrin ətraf mühitin parametrlərinə səmərəli uyğunlaşmanı təmin etmək üçün daha təkmil idarəetmə sistemi yaradılmalı, məhsul və xidmətlər, qiymət, təchizat, bazarların seçimi üçün müvafiq iqtisadi strategiyaların formalaşdırılması və həyata keçirilməsini şərtləndirir.

Son illər ölkəmizdə bu istiqamətlərdə bir sıra dövlət proqramları həyata keçirilməkdədir. Belə ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər)" və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair

2015-2020-ci illər üçün Dövlət proqramı”nda, “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə iqtisadiyyatın müxtəlif sferaları, o cümlədən yüngül sənayenin inkişafı üzrə çox mühüm tədbirlər nəzərdə tutulmuşdur. Görülən tədbirlər nəticəsində regionlarda yüngül sənaye müəssisələrinin inkişafı və milli brend (Made in Azerbaijan) adı altında məhsul ixracına nail olunmuşdur.

Yüngül sənaye sahəsinin inkişaf etdirilməsi daxili tələbatı ödəməklə idxal məhsullarının azalmasına və ixrac potensialının artmasına şərait yaradır. Nəticədə valyuta ehtiyatları qorunaraq daha zəruri işlərə yönəldilə bilər və ölkəyə əlavə valyuta axını gətirə bilər. Məhz belə tədbirlərdən istifadə etməklə yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətini yüksəltmək, bu sferada istehsal və biznes fəaliyyəti ilə bağlı zəruri mühit formalaşdırmaq mümkündür. Yüngül sənaye müəssisələrinin inkişafına təsir edən amillərin müxtəlifliyi bu sferada rəqabətqabiliyyətli müəssisələrin yaradılması və inkişaf etdirilməsinə yeni nəzəri və praktiki yanaşma tələb edir. Göstərilənlər yüngül sənaye müəssisələrinin fəaliyyətlərində rəqabətqabiliyyətliliklə bağlı mövcud problemlərin tədqiqinin aktuallığını şərtləndirir.

**Problemin öyrənilməsi vəziyyəti.** Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin sosial-iqtisadi aspektləri ilə bağlı nəzəri məsələlər iqtisadçı alimlərin daim diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə Respublika alimlərindən A. A. Nadirov, Ə. X. Nuriyev, T. H. Hüseynov, S. V. Salahov, İ.H.Alıyev, H.A. Xəlilov, Q. Ə. Səfərov, R.M.Cəbiyev, R. K. İsgəndərov, N. Ə. Cavadoc, F. Ə. Məmmədov, A. H. Tağıyev, M. H. Fərzəliyev, C.Q. Musayeva, V. Ə. Rüstəmov və başqalarının çoxsaylı monoqrafiyaları, məqalələri və tədqiqat nəticələri vardır.

Xarici ölkə alimlərindən A. Marşal, M. Porter, A. Romantsev, M. Albert, V. Afanasyev, L. Abalkin, S. Qlazeva, P. İqnatevski və başqaları bu istiqamətdə araşdırmalar aparmışlar. Bu müəlliflərin əsərlərində yüngül sənaye müəssisələrində rəqabətqabiliyyətliliklə bağlı daxili resurslar və ətraf mühitin imkanları arasında effektiv balans təmin etmək, müəssisənin daxili və xarici mühiti arasında yüksək səviyyəli əlaqə yaratmaq məsələləri önə çəkirlir. Bu yanaşma bugünkü dinamik sosial-iqtisadi mühitdə, eləcə də idxalın genişləndiyi şəraitdə daha fərqli mahiyyət kəsb etdiyindən tədqiqat zamanı yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi probleminin kompleks şəkildə tədqiqi mövzusu seçilmişdir.



**Çapa imzalanıb: 11.12. 2017**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun “Elmi əsərlərinin” buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**

**Valiyev Jeyhun Amin**

**Ways of increasing competitiv enessability of lightin dustry enter prisesin Azerbaijan**

## SUMMARY

First part of the dissertation is called **"Theoretical and Methodological Basis for the Formation of the Concept of Competitiveness in Light Industry".** In this part has shown scientific approaches to the light industry enterprises as the subject of competition, and in which areas the light industry is directly related to the country's development. Light industry enterprises have been investigated as a competitor and analyzed the role of light industry in the development of the country.

In the second part of the dissertation titled **"Current state of product production and competitiveness in light industry enterprises"**, the quantity and volume of industrial products are studied regardless of the forms of ownership of industrial enterprises operating in Azerbaijan during the relevant period. The main economic indicators of light industry enterprises operating in Azerbaijan.were given and analyzed in this part. Microeconomic aspects of development of integration relations between agricultural producers and light industry enterprises are investigated. The role of the use of innovations and the use of investments in increasing the competitiveness of light industry enterprises has also been investigated. Analysis of import-export operations on light industry products was carried out.

In the third part of the dissertation titled **"Directions for raising competitiveness of light industry enterprises and products",** comparisons of light industry competitive conditions have been compared with using available resources to improve competitiveness of light industry enterprises. The role of export expansion in light industry product competitiveness has been analyzed in this part. The reasons for inefficient management of light industry in Azerbaijan and the role of management in raising competitiveness have been studied.



**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi xarici ticarət əlaqələrinin genişləndiyi şəraitdə müasir iqtisadi münasibətlərin tələblərinə uyğun olaraq, yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə iqtisadi cəhətdən əsaslandırılmış nəzəri-təcrübəvi təkliflər işlənib hazırlanmasından ibarətdir.

Tədqiqat zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- yüngül sənaye müəssisələrinin inkişafına mövcud iqtisadi münasibətlər xaricində təsir edən fərdi və qrup amillərin müəyyən edilməsi, bu amillərin təsir gücünün qiymətləndirilməsi;
- xarici ticarət, innovasiya, investisiya və infrastrukturun yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətinə təsirinin müəyyən edilməsi;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinə təsir edən daxili və xarici amillərin müəyyənləşdirilməsi;
- yüngül sənaye müəssisələrində innovativ texnologiyalardan istifadənin rəqabətqabiliyyətli məhsul istehsalına təsirinin müəyyən edilməsi;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinə rəqabət üstünlüyündə özünü biruzə verən beynəlxalq rəqabətin təsirinin müəyyənləşdirlməsi;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi əsasında rəqabət qabiliyyətliliyin yaxşılaşdırılması tədbirlərinin müəyyən edilməsi.

**Tədqiqat obyekti.** Tədqiqatın obyekti kimi Azərbaycan Respublikasının yüngül sənaye sferasında fəaliyyət göstərən müəssisələr seçilmişdir.

**Tədqiqatın predmeti.** Mövcud iqtisadi münasibətlər şəraitində yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir edən sosial-iqtisadi inkişaf amillərinin və bu sahə müəssisələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsi ilə bağlı tədbirlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Dissertasiya işinin elmi və nəzəri müddəalarını yerli və xarici iqtisadçı alimlərin əsərləri təşkil edir. Tədqiqatın aparılması ilə bağlı statistik məlumat və informasiyalar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin materiallarına, Azərbaycan Respublikasının qanunvericilik sənədlərinə, dövlət proqramlarına əsaslanır.

Qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək və tədqiqatda daha

real nəticələr əldə etmək üçün iqtisadi təhlilin müasir metodlarından olan müqayisəli təhlil, analiz, sintez və riyazi-statistik üsullardan istifadə edilmişdir.

**Dissertasiya işinin elmi yeniliyini** aşağıdakı əsas müddəalar xarakterizə edir:

- yüngül sənaye müəssisələrinin inkişafına mövcud iqtisadi münasibətlər xaricində təsir edən fərdi və qrup amillər müəyyən edilmiş və bu amillərin təsir gücü qiymətləndirilmişdir;
- xarici ticarətin, innovasiyanın, investisiyanın və infrastrukturun yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətinə təsiri müəyyən edilmişdir;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinə təsir edən daxili və xarici amillər müəyyənləşdirilmişdir;
- yüngül sənaye müəssisələrində innovativ texnologiyalardan istifadənin rəqabətqabiliyyətli məhsul istehsalına təsiri müəyyən edilmişdir;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinə beynəlxalq rəqabətin təsiri müəyyənləşdirilmişdir;
- yüngül sənaye müəssisələrinin fəaliyyətinin rəqabətqabiliyyətliliyin yaxşılaşdırılması üzrə inkişaf tədbirləri müəyyən edilmişdir.

**İşin təcrübi əhəmiyyəti:** Dissertasiyanın əsas müddəaları və nəticələri tədbiqi xarakter daşıyır və yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və ixrac yönümlü məhsul istehsalının genişləndirilməsində, iqtisadi cəhətdən əsaslandırılmış proqnozların verilməsində və regional sosial-iqtisadi inkişaf proqramlarının hazırlanmasında istifadə oluna bilər. Tədqiqat nəticəsində hazırlanmış təkliflər yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, bu müəssisələrin daha keyfiyyətli xammalla təmin olunması səviyyəsinin yaxşılaşdırılması, yüngül sənaye məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, rəqabətqabiliyyətli məhsulların ixrac imkanlarının genişləndirilməsi baxımından praktiki əhəmiyyət kəsb edir. Dissertasiya işinin yerinə yetirilməsində əldə edilmiş nəticələr "İNTER TEXTİLE" ASC tərəfindən (arayış № 25/17, 10 fevral 2017-ci il) istifadə üçün qəbul edilmişdir.

**Tədqiqatın nəticələrinin dərc edilməsi və nəşri.** Tədqiqatın nəticələri respublika və beynəlxalq səviyyəli konfrans və seminarlarda məruzə edilmişdir.

Tədqiqatın nəticələri 1-i xaricdə olmaqla 9 məqalə və tezislərdə öz əskini tapmışdır.



**Велиев Джейхун Амин оглы**

**Повышение конкурентоспособности предприятий лёгкой промышленности в Азербайджане**


## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определены цели и задачи исследования, рассмотрены теоретические и методологические основы конкурентоспособности предприятия лёгкой промышленности Азербайджана, научная новизна и значимость исследования.

В первой главе: **«Теоретические и методологические основы формирования конкурентоспособности предприятий лёгкой промышленности Азербайджана»** рассмотрены сущность, содержание и критерии, а также показаны различные подходы в формировании конкурентоспособности предприятий лёгкой промышленности.

Во второй главе: **«Современное состояние и конкурентоспособность предприятий лёгкой промышленности Азербайджана»** рассмотрены основные вопросы формирования конкурентоспособности в лёгкой промышленности Азербайджана, проанализированы основные индикаторы, способствующие конкурентоспособности продукции, а также исследованы экспортно-импортные операции при производстве и экспорте продукции. Также исследована роль инвестиций и инноваций в повышении конкурентоспособности продукции.

В третьей главе: **«Оптимизация конкурентоспособности продукции предприятия лёгкой промышленности и пути её совершенствования»** рассматриваются вопросы повышения качества продукции и её влияние на конкурентоспособность продукции. Здесь также рассмотрены показатели повышения качества, которые в конечном счёте формирует конкурентоспособность продукции.

В заключение диссертации даны выводы и предложения по дальнейшему совершенствованию конкурентоспособности продукции в лёгкой промышленности Азербайджана.

9. Yüngül sənaye sektorunun beynəlxalq bazarlarda rəqabət gücünün müəyyən edilməsi üsulları. Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı. Bakı Mühəndislik Universiteti, 5-6 May 2017-ci il, səh. 347.



**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticədən və ədəbiyyat siyahısından ibarət olmaqla 128 səhifədən, o cümlədən öz əksini tapmışdır. Dissertasiyada həmçinin 10 cədvəl, 3 şəkil və 124 adda ədəbiyyat mənbələri verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində problemin aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi şərh edilmiş, məqsəd və vəzifələr, nəzəri-metodoloji əsaslar, informasiya bazası, elmi yeniliyi və praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, işin strukturu barədə məlumatlar verilmişdir.

**Dissertasiya işinin birinci fəsli** "Yüngül sənaye sahəsində rəqabətlilik qabiliyyəti konsepsiyasının formalaşmasının nəzəri - metodoloji əsaslari" adlanır. Bu fəsildə rəqabətlilik qabiliyyəti konsepsiyasının formalaşması ilə bağlı elmi baxışlar, yüngül sənaye müəssisələrinin rəqabət subyekti kimi rəqabət gücü və yüngül sənayenin ölkənin iqtisadi inkişafında rolu şərh edilir.

Yüngül sənaye sferasında istehsal olunan məhsullar çoxşaxəli olmaqla iqtisadi ədəbiyyatlarda ilkin olaraq toxunmuş parça mənasında işlənilir. Burada eyni zamanda tekstil termini daha çox istifadə edilir. Ona görə də lif, fitil, təbii və ya əl istehsalı iplikləri, bunların xammal olaraq istifadə edildiyi, bir çox məhsullar aid edilir. İpliklər, kəndirlər, kəndir toxumalar, hörmə və toxunmamış parçalar, bağlar, hörmələr və naxışlar, toxunmuş iplik və parçalardan alınan döşəməlik əşyalar, hörmə geyim və digər geyimlər, ev tekstil məhsulları, xalçalar və digər lif əsaslı məmulatlarda yüngül sənaye məhsullarına aiddir. Başqa sözlə bu sahə yüngül sənayedə lif və ya lift məhsulları istehsalçılarını, istehsallda istifadə olunan xammallarını, təchizaçı strukturları, bacarıqları, texniki heyətləri və əlaqədar quruluşları əhatə edir.

Yüngül sənaye sektoru, müxtəlif lif növlərinin əvvəl iplik halına gətirilməsi, toxunması, müəyyən naxışlarda və rənglərdə birləşdirilməsi sayəsində parça və daha sonra da son məhsul əldə edilməsi mərhələlərindən ibarət olan ən qədim istehsal fəaliyyətidir. Yəni yüngül sənaye sektoru pambıq, pambıq ipliyi və toxuma, yun, yun ipliyi və toxuma, ipək toxuma, sintetik iplik və sintetik toxuma, bez, kətan və bütün bunların törəmələrindən əldə edilən məhsulların istifadə edildiyi hazır geyim, paltar, əl və maşın xalçaları alt sektorlarından ibarətdir.

Bütün sahələrdə olduğu kimi yüngül sənaye sektoru da dinamik bir sferada fəaliyyət göstərməkdədir. Bu dinamik sferanın ehtiyacları və tələbləri davamlı olaraq dəyişilir. Yüngül sənaye müəssisələrinin ətraf ilə uyğunluğu üçün fəaliyyətlərində dəyişmə müddətinin izləməsi və yaşanması zəruridir. Müəssisələr həm mövcud vəziyyəti yaxşılaşdırmaq, həm də gələcəyə hazır olmağı mümkün edəcək strateji hədəfləri təyin etmək kimi vacib məsələləri həll etməlidirlər.

Dünya təsərrüfat əlaqələrinin müasir inkişaf səviyyəsi Yüngül sənaye sferasında da iqtisadiyyatın digər sferalarında olduğu kimi yeni təzahürlər doğurmaqla dərin struktur dəyişikliklərinə səbəb olmaqdadır. Yəni yeni texnologiyaların istehsalata tətbiq edilməsi nəticəsində milli və beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Təsadüfi deyil ki, qarşılıqlı iqtisadi əlaqələrin inkişaf meylləri yerli istehsal müəssisələrinin dünya bazarına çıxışına əsaslı zəmin yaratmışdır. Təsərrüfat əlaqələrinin transmillиləşdirilməsi və bazarların qloballaşması ölkələr və iqtisadiyyatın müxtəlif sferaları arasında bazarlar uğrunda rəqabət mübarizəsinin kəskinləşməsinə, bu mübarizənin yeni forma və metodlarının meydana çıxmasına gətirib çıxarmışdır.

Tarixin keyfiyyətcə yeni bir mərhələyə daxil olduğu – qloballaşma dövründə dünya bazarı ilə intensiv inteqrasiya edən respublikamızda xarici iqtisadi fəaliyyət sahəsində strateji kursun hazırlanaraq həyata keçirilməsi üçün müstəqil xarici iqtisadi fəaliyyət sisteminin yaradılması və durmadan təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir.

Hazırda beynəlxalq rəqabət demək olar ki, qlobal xarakter almışdır. Belə ki, rəqabət dünya təsərrüfatı sistemində yer tutmaq üçün milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi mexanizminin formalaşdırılmasına istiqamətlənir. Rəqabətlilik qabiliyyəti isə dünya təsərrüfat sistemində konkret müəssisənin, sahənin və məhsulun vəziyyətini müəyyən edən mühüm göstəricisi kimi çıxış edir.

Ümumi şəkildə rəqabət iqtisadi fəaliyyətlərin səmərəli şəkildə davamı üçün lazımlı olan və strateji əhəmiyyətə sahib olan bir iqtisadi vasitədir. Əslində rəqabət, qıt qaynaqların sərhədsiz ehtiyacları qarşılama səbəbilə ortaya çıxan bir hadisədir. Rəqabət üstünlüyü isə yerli bir müəssisənin milli və ya beynəlxalq bazarda rəqabət gücünə sahib olmasıdır. Eyni zamanda, əlaqədar müəssisələrin yerli və xarici rəqiblərinə qarşı qiymət-keyfiyyət, vaxtında çatdırma, satış sonrası xidmət kimi ünsürlər baxımından hal-hazırda və gələcəkdə onlara bərabər və ya onlardan daha üstün olma vəziyyətidir. Başqa sözlə,



Bu istiqamətdə və bütövlükdə yüngül sənayenin inkişafında xüsusilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin əhəmiyyətini qeyd etmək olar.

Qeyd etmək lazımdır ki, göstərilənlərdən başqa yüngül sənaye müəssisələri arasındakı mövcud rəqabət şərtlərinə və rəqabət qabiliyyətli istehsala təsir edən çox sayda amillər də mövcuddur. Xüsusilə sektorda istehsal gücünün və təklifin çoxluğunun olması, bu sektora yeni ölkələrin və müəssisələrin girməsinin asan olması, alıcıların və paylama kanalına sahib olan müəssisələrin çox güclü olması rəqabət şərtlərini daha da kəskinləşdirir. Ona görə də yüngül sənaye müəssisələri hər bir amilə görə rəqabət şərtlərini təhlil edərək rəqabət strategiyalarını müəyyən etməlidir.

Dissertasiya işinin sonunda aparılmış təhlillər əsasında müvafiq olaraq əsaslandırılmış elmi-praktiki təklif və tövsiyyələr verilmişdir.

**Dissertasiya mövzusu üzrə aşağıdakı elmi əsərləri dərc edilmişdir:**

1.Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyini şərtləndirən amillər. İpək Yolu, № 4, Bakı, 2015, Səh. 156-158.

2. Стимуляция использование инноваций в легкопромышленной отрасли Азербайджана. ЭКОНОМИКА И БИЗНЕС теория и практика Международный ежемесячный научный журнал №1, январь 2017 г.Səh. 15-19.

3. Yüngül sənaye müəssisələrində innovasiyaların rəqabət potensialından istifadəyə təsiri. İpək Yolu, № 4, Bakı, 2016, səh. 102-105.

4. Yüngül sənaye müəssisələrində rəqabət qabiliyyətli istehsala təsir edən amillər. AMEA İqtisadiyyat İnstitutu "Elmi Əsərlər" toplusu, №1 2017, səh. 105 -110.

5. Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi. Azərbaycan Aqrar elmi jurnalı № 2, Bakı 2017 səh. 175-177.

6. Azərbaycanda yüngül sənaye. Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransı 17-18 Aprel 2015-ci il, Bakı, Ssəh. 634-635.

7. İqtisadi inkişaf konsepsiyasına ilk nəzəri baxışlar. Kreativ sənaye texnologiyalarının tədrisi və tətbiqi Beynəlxalq elmi-praktik konfrans GƏNCƏ -2015, səh. 358-359.

8. Rəqabət mühitində toxuculuq müəssisələrinin inkişaf prespektivləri. Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı 29-30 Aprel 2016-ci il, Bakı, səh. 571-572.

məşğulluq kontekstində əsasını təşkil edən yüngül sənaye sektorunun qlobal bazarlardakı rəqabət gücü öyrənilməlidir.

Araşdırmalar göstərir ki, ixracatdakı beynəlxalq rəqabət gücü və rəqabət gücünə təsir edən üç amillə - qlobal bazar, müəssisə strategiyaları, milli siyasətlərlə bağlı təhlillərə üstünlük verilməlidir. Bu ona görə vacibdir ki, istehsal olunan məhsullar həm daxili tələbat, həm də ixrac üçün nəzərdə tutulur və bu zaman təbii olaraq müəssisənin iqtisadi maraqlarının yanında ölkə maraqları da dayanır.

İqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənaye müəssisələri tərəfindən rəqabət potensialının təhlil edilməsidə bu təhlilin nəticəsinə görə rəqabətqabiliyyətlilik strategiyalarının müəyyən edilməsi, müəssisənin mövcud bazar payını qoruması və bazar payını artıra bilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin olunması strategiyasının müəyyən edilməsi hazırlanacaq tədbirlərin elmi əsaslandırılması və iqtisadiyyatın bu mühüm sferasının iqtisadi xüsusiyyətlərinin nəzərə alınması ilə bilavasitə bağlıdır.

Rəqabətqabiliyyətliliyin mahiyyəti barədə nəzəri mülahizələr yüngül sənayedə idarəetmənin nəzəri bazası ilə birləşərək müəssisələrin spesifik idarəetmə mexanizmini müəyyənləşdirməsində mühüm rol oynayır. Bu mexnizmin hazırlanması və reallaşdırılmasında yüngül sənaye müəssisələrinin maliyyə imkanlarının, resurs potensialının, texnoloji proseslərinin və yeniliklərinin mövcud vəziyyəti nəzərə alınmalıdır. Yüngül sənaye müəssisələrinin idarə edilməsinin təkamülü elə bir mərhələyə çatmışdır ki, yalnız sabit iqtisadi konyunktur olan şəraitdə maliyyə institutlarının risklərini araşdırmaq kifayət etmir. Bu zaman sənaye müəssisələrin risklərini qeyri-sabit iqtisadi, siyasi və sosial şəraitdə araşdırmağa zərurət yaranır.

Yüngül sənayenin inkişafı ölkələrdə, məşğulluq, daxili bazarın möhkəmləndirilməsi, daxili tələbatın ödənilməsi və ticarət yolu ilə xarici ölkələrdə dəyər yaratma baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici bazarlara yönəlmənin təməlində ilk olaraq, ixrac və rəqabət qabiliyyətli məhsul istehsalı dayanır. Əslində dünya ölkələrinin rəqabət gücünü təyin edən ən əhəmiyyətli ünsür, o ölkənin istər daxili bazarlarda və istərsə də xarici bazarlarda tutduğu mövqe və yaratdığı əlavə dəyərdir. Bütün dünyada olduğu kimi Azərbaycanda da yüngül sənaye sektoru ölkənin iqtisadi inkişafında iqtisadi – sosial əhəməyyətliliyi ilə seçilir. Son illər həyata keçirilən tədbirlər də məhz yüngül sənaye sektorunun yaratdığı əlavə dəyərin artırılması və rəqabət üstünlüklərinin təmin edilməsinə yönəldilmişdir.



rəqabət gücü ölkələrin sərbəst və yerləşmiş bazar şərtləri daxilində istehsalçıların real gəlirlərini artırmaq məqsədilə, məhsul və xidmətlərini beynəlxalq bazarlarda müvəffəqiyyətli şəkildə reallaşdıra bilməsidir. Dünya təcrübəsi göstərir ki , dövlətlərin çoxu rəqabət qabiliyyətini ilk mərhələdə beynəlxalq bazarda deyil, daxili bazarda yüksəltməyə çalışırlar.

İqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənaye sferası müəssisələrinin bazarlarda rəqabət gücü müxtəlif amillərlə müəyyən edilir. Ümumiyyətlə yüngül sənaye toxuculuq, tikiş, xəzdəri, gön-dəri, ayaqqabı, trikotaj və xalçaçılıq sahələrindən ibarətdir. Bu sənayenin əsasını əmək və sərmayə təşkil edir. Yüngül sənayenin müəssisələri də mebel, aviasiya, avtomobil, kimya, elektrik, ərzaq və digər sənaye, kənd təsərrüfatı, hüquq-mühafizə orqanları, nəqliyyat və səhiyyədə istifadə olunan istehsal, texniki və xüsusi məqsədlər üçün məhsullar istehsal edilir. Deməli yüngül sənaye ölkənin əhalisinin ehtiyaclarını ödəmək üçün istehlak mallarının istehsalı üçün iqtisadiyyatın bir filialıdır və əsas vəzifəsi əhalinin artan ehtiyaclarını ödəməkdən ibarətdir.

Yüngül sənayenin, dolayısı ilə tekstil sənayesinin inkişafı ölkə iqtisadiyyatının yüksəldilməsində mühüm rol oynaması ilə bərabər əhali məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Xüsusəndə qadın məşğulluğunun təmin olunması bu sahənin inkişafını şərtləndirir. Ona görə də xammal bazası mövcud olan tekstil, gön-dəri və ipəkçiliyin inkişafı yüngül sənayenin strateji planlaşdırılmasında prioritetlik təşkil etməlidir.

Başqa sözlə bazar iqtisadiyyatı şəraitində istehlak mallarının keyfiyyətinin yüksəldilməsində yüngül sənayenin rolunun artırılması daha mühüm amilə çevrilməkdədir. Ümumiyyətlə yüngül sənaye sosial-iqtisadi və regional aspektdə də mühüm əhəmiyyət kəsb edir. Qeyd edildiyi kimi bu bir tərəfdən sahənin yüksək əmək haqqı, intensiv inkişaf baxımından əhəmiyyətli səviyyədə gəlir əldə etməyə imkan yaratması ilə, digər tərəfdən maddi və mənəvi ehtiyacların ödənilməsi baxımından vacibliyi ilə əlaqədardır.

Bütün bu sahələrin inkişafı göründüyü kimi bir-birilə əlaqəlidir. Deməli, həmin sahə məhsullarının əlaqəsi satış prosesində yaranan rəqabət mühitində də nəzərə alınmalıdır. Beləliklə, yüngül sənayenin inkişaf perspektivlərini istehsal olunan məhsullarının keyfiyyətinin və rəqabətə davamlılığının artırılması, struktur dəyişikliklər, innovasiyaların istehsalata cəlb edilməsi və tətbiqi təşkil edir. Son illər yüngül sənayenin sosial-iqtisadi və regional aspektdə əhəmiyyəti nəzərə

alınmaqla iqtisadiyyatın bu mühüm sferasının inkişaf etdirilməsi üzrə bir sıra tədbirlər müəyyənləşdirilmişdir. Nəticədə yüngül sənaye sahələrinin yenidən təşkil edilməsi nəticəsində məhsul istehsalının həcminin və keyfiyyətinin artımı ilə bağlı müsbət dəyişikliklər baş vermişdir. Eyni zamanda xammal emalı, toxuculuq və tikiş, dəri və dəridən olan məmulatlar və ayaqqabı istehsalı sahələrində, xammal bazasının möhkəmləndirilməsi, istehsal-texniki səviyyəsinin artırılması, keyfiyyətin və rəqabətlilik qabiliyyətinin yüksəldilməsi istiqamətində irəliləyişlər əldə edilmişdir. Bu cür tədbirlərdən biri kimi "Azərbaycan Respublikasının Milli İqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ni və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nı qeyd etmək olar. Qeyd edilənlərə müvafiq olaraq yüngül sənaye istehsalının modernləşməsi, şaxələndirilməsi, bu sahənin ixracda artımın əsas mənbəyinə çevrilməsi, istehsalda regionların payının yüksəlməsi, məşğulluğun strukturunda yüngül sənayenin payının artması, məhsuldarlığın artması, innovasiyalar tətbiq edən müəssisələrin sayının artması, müəssisələrin fəaliyyətini dəstəkləyən müvafiq mexanizmlərin qurulması, beynəlxalq standartların tətbiqinin genişləndirilməsi, təkmil qanunvericilik bazasının formalaşdırılması və s. kimi mühüm nəticələr əldə etmək mümkündür.

**Dissertasiya işinin ikinci fəsli** "Yüngül sənaye müəssisələrində məhsul istehsalının və rəqabətlilik qabiliyyətinin mövcud vəziyyəti" adlanır. Bu fəsildə yüngül sənaye sahələrində məhsul istehsalının mövcud vəziyyətinin təhlili, yüngül sənaye müəssisələrinin və istehsal olunan məhsulların rəqabətlilik səviyyəsinə təsir edən amillərin və ölkənin yüngül sənaye məhsullarının idxal və ixrac balansı təhlili aparılmış, rəqabətlilik qabiliyyətinin yüksəldilməsi ilə bağlı beynəlxalq təcrübə öyrənilmişdir.

Hazırda yüngül sənaye sahəsinin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər istehsalın genişləndirilməsi, müəssisələrin rəqabətə davamlılığının yüksəldilməsi, mənfəətin artımı kimi mühüm göstəricilərlə yanaşı, regional inkişafın təmin olunmasına, gəlirlərin səmərəli bölgüsünün təmin edilməsinə istiqamətlənir. Bu baxımdan dövlət tərəfindən bütövlükdə sənayenin, o cümlədən yüngül sənayenin inkişafının təmin edilməsi istiqamətində bir sıra tədbirlər görülməkdədir. Müvafiq tədbirlərdə sənayenin inkişaf istiqamətləri, o cümlədən modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, ixrac potensialının artırılması, elm tutumlu və innovativ istehsalın



artırılması imkanları mövcud olsa da göründüyü kimi ixracın həcmində əsasən azalma baş vermişdir. İstehsalla yanaşı ixraca mənfi təsir göstərən amillərdən biri kimi rəqabət qabiliyyətli istehsalın genişləndirilməsi üçün müasir texnika və texnologiyalardan, konkret olaraq innovasiyalardan istifadənin aşağı səviyyəsini də qeyd etmək olar.

Qeyd edilənləri nəzərə alaraq yüngül sənaye sferasında xarici iqtisadi əlaqələr istiqamətində daha səmərəli nəticələr əldə etmək üçün aşağıdakı məsələlərə diqqət yetirilməsi müsbət nəticələr əldə etməyə imkan verə bilər:

- sənaye üçün zəruri olan xammal bazasının mövcud vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması;
- yerli istehsalın idxalı əvəzləmə imkanlarının müəyyənləşdirilməsi və reallaşdrılması məqsədilə rəqabətqabiliyyətli ixrac potensialının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi;
- yüngül sənaye müəssisələrində investisiya cəlbediciliyinin yüksəldiməsi imkanlarının qiymətləndirilməsi;
- yüngül sənayedə innovasiyalı layihələrinin, yeni texnika və texnologiyaların tətbiqi imkanlarının təhlili və keyfiyyətli məhsul istehsalı potensialının gücləndirilməsi və istiqamətlərinin müəyyən edilməsi.

**Dissertasiya işinin üçüncü fəslində** "Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik potensialının yaxşılaşdırılması və rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətləri" adlanır. Bu fəsildə rəqabətqabiliyyətliliyin yaxşılaşdırılmasında mövcud potensialın qiymətləndirilməsi, yüngül sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin ixracın stimullaşdırılmasında rolu, yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində idarəetmənin rolu, yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi ilə bağlı beynəlxalq təcrübə məsələləri öz əksini tapır.

Ölkələrin qlobal iqtisadi güclər və digər ölkələrə görə nisbi üstünlükləri hazırda daha çox milli gəlir, hər nəfərə düşən gəlir, ixracat səviyyəsi kimi makro iqtisadi göstəricilər əsas götürülərək müqayisə edilir. Belə müqayisə aparıldıqda ölkələrin mikro göstəriciləri arxa planda qalır. Həmçinin müasir dövrdə qlobal səviyyədə rəqabət məhsullar əsasında aparılır. Bu məzmunda ölkələrin qlobal bazarlarda rəqabət üstünlük və çatışmazlıqlarını ortaya qoya bilmək, bu istiqamətdə zamanında doğru strategiya seçə bilmək üçün məhsul və sahə əsaslı müqayisəli təhlili aparılaraq proqnozlar hazırlanmalıdır. Bu məqsədlə ixracata söykənən ölkələrin sənayeləşmə və inkişaf strategiyasının meydana gətirdiyi əlavə dəyər, istərsə də təmin etdiyi

Yüngül sənaye müəssisələrinin rəqabətlilik qabiliyyətinin qiymətləndirilməsi də qeyd edilənlərlə yanaşı optimal stimullaşdırma mexanizminin müəyyən edilməsini tələb edir. Bu baxımdan rəqabətə davamlı məhsulların satışının stimullaşdırılmasına üstünlük verilməsi, stimullaşdırıcı tədbirlərdən hansı səviyyədə istifadə edilməsi, bu məqsədlə nə qədər maliyyə vəsaiti ayrılması, həmin vəsaitin necə bölüşdürülməsi kimi məsələlərin həlli üçün xarici ticarət əlaqələrinin təkmilləşdirilməsinə dair qərarların optimallaşdırılması zəruridir. Yüngül sənaye məhsulları üzrə ixracın əmtəə strukturu cədvəl 5 – də verilmişdir.

**Cədvəl 5.**

**Yüngül sənaye məhsulları üzrə ixracın əmtəə strukturu, min ABŞ dolları ilə**

| Məhsullar | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Emal olunmamış gön (xəzdən başqa) vəaşılanmış dəri | 14 019,2 | 17 150,5 | 24 069,4 | 12 179,0 | 15 225,7 |
| Dəri məmulatları, qadın çantaları və analoji mallar | 72,5 | 23,3 | 24,6 | 5,9 | 97,4 |
| İpək | 1 155,3 | 1 312,4 | 1 902,0 | 489,7 | 145,0 |
| Yun, zərif və ya qaba heyvan tükü | 116,0 | - | - | - | 95,2 |
| Pambıq | 23 364,5 | 31 817,5 | 14 498,8 | 19 504,9 | 24 231,6 |
| Xalçalar və digər toxunma döşəmə örtükləri | 117,2 | 74,5 | 69,7 | 117,2 | 176,5 |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 494,7 | 225,4 | 38,3 | 150,2 | 337,2 |

Mənbə: Sənayenin statistikası, Dövlət Statistika Komitəsinin məlumatları, Bakı-2017

Araşdırmalar göstərir ki, son illərdə ölkənin yüngül sənaye müəssisələri tərəfindən ixrac olunan məhsulların dinamikasında müxtəlif istiqamətli dəyişikliklər baş vermişdir. 2015-ci ildə əvvəlki illə müqayisədə yalnız emal olunmamış gön və aşılanmış dəri ixracından 10,6% artım qeydə alınmışdır. Dəri məmulatları, qadın çantaları və anoloji mallar üzrə 71,6%, ipək məhsulu üzrə 74,5%, pambıqda 6%, xalçalar və digər toxunma döşəmə örtükləri üzrə 3,5%, ayaqqabı, baş geyimləri və s. məhsullarda 66,2% azalma müşahidə edilir. 2016-cı ildə isə 2015-ci illə müqayisədə yalnız ipək ixracında 70,4% azalma qeydə alınmış, digər məhsul növlərinin ixracı artmışdır. Qeyd edilən məhsul növlərinin hər biri üzrə respublikamızda istehsalın



genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması kimi qarşıya mühüm məqsədlər qoyulmuşdur.

Bundan başqa rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye zonaları və klasterlərinin qurulması, kadr potensialının və elmi təminatın gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi və s. kimi mühüm istiqamətlər müəyyənləşdirilmişdir. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi qeyri-neft sənayesinin modernləşməsi və diversifikasiyasına, sənaye məhsullarının ixracının artımına, sənaye istehsalında regionların payının yüksəlməsinə, yeni iş yerlərinin yaradılmasına, sənaye müəssisələrinin sənaye zonalarında cəmləşməsinə xidmət edir. Qeyd edilən bu məsələlər yüngül sənaye müəssisələrində rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılmasının əsas şərtlərindən hesab olunur.

Görülən tədbirlər təbii olaraq özünü müəssisələrin fəaliyyətində büruzə verməlidir. Bunu yüngül sənaye müəssisələrinin əsas iqtisadi göstəricilərinin dinamikasına nəzər saldıqda aydın şəkildə görmək mümkündür. Yüngül sənaye məhsulları istehsalı ilə məşğul olan müəssisələrlə bağlı statistik məlumatlara və həmin müəssisələrin istehsal fəaliyyətinə nəzər saldıqda müxtəlif istiqamətlərdə dəyişikliklərin baş verdiyini cədvəl 1-də görmək olar.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında yüngül sənaye müəssisələrinin əsas iqtisadi göstəriciləri**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2012-ci ilə nisbətən 2016-cı ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 168 | 170 | 145 | 143 | 149 | 88,7 |
| toxuculuq | 72 | 72 | 66 | 68 | 66,0 | 91,7 |
| geyim istehsalı | 75 | 75 | 57 | 52 | 60,0 | 80,0 |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 21 | 23 | 22 | 23 | 23 | 109,5 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə | | | | | | |
| toxuculuq | 160.2 | 76,2 | 105.2 | 44,8 | 260,9 | x |
| geyim istehsalı | 118.5 | 90,9 | 134.5 | 55,8 | 141,0 | x |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 150.0 | 93,3 | 59.0 | 103 | 68,2 | x |

**Cədvəl 1 ardı**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə | | | | | | |
| toxuculuq | 0.2 | 0,2 | 0.2 | 0,4 | 0,5 | x |
| geyim istehsalı | 0.11 | 0,13 | 0.2 | 0,2 | 0,2 | x |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 0.1 | 0,1 | 0,1 | 0,1 | 0,1 | x |
| Sənayeyə yönəldilən investisiyaların həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə | | | | | | |
| toxuculuq | 0.1 | 0,1 | 0.5 | 0,1 | - | x |
| geyim istehsalı | - | - | 0,1 | 0,1 | - | x |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | - | - | - | 0,1 | - | x |

Mənbə: Azərbaycanın Statistik Göstəriciləri, Dövlət Statistika Komitəsi., Bakı-2017.

Statistik məlumatların təhlili göstərir ki, 2012-2016-cı illərdə yüngül sənaye müəssisələrinin sayında 11,3% azalma qeydə alınmışdır. O cümlədən toxuculuq müəssisələrinin sayı müqayisə olunan illərdə 8,3%, geyim istehsalı müəssisələri 20% azalmış, dəri, dəri məmulatları və ayaqqabı istehsalı müəssisələrinin sayında 9,5% artım baş vermişdir. 2016-cı ildə özündən əvvəlki illə müqayisədə toxuculuq müəssisələrində sənaye məhsulunun fiziki həcm indeksi 260,9%, geyim istehsalı müəssisələrində 141%, dəri, dəri məmulatları və ayaqqabı istehsalı müəssisələri üzrə isə 68,2% təşkil etmişdir. Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində bu sahələrə qoyulan investisiyaların xüsusi çəkisi isə 0,1-0,5% arasında dəyişmişdir. Belə ki, yalnız 2015-ci ildə bu göstəricinin payı toxuculuq müəssisələrində 0,5%, digər illərdə isə toxuculuq, geyim istehsalı müəssisələrində, həmçinin dəri, dəri məmulatları və ayaqqabı istehsalı müəssisələrinində 0,1% səviyyəsində qeydə alınmışdır. Göründüyü kimi, təhlilin aparıldığı illərdə yüngül sənaye sahələrinə investisiya qoyuluşları çox aşağı səviyyədə həyata keçirilmişdir. Qeyd edilənlər yüngül sənaye müəssisələrinin fəaliyyətini xarakterizə edən iqtisadi göstəricilərin əsasən qənaətbəxş nəticələnmədiyini söyləməyə əsas verir.

Yüngül sənaye müəssisələrinin inkişafında xammalın mühüm rol oynaması danılmaz bir amildir. Bu sahəni isə xammalla kənd təsərrüfatı təmin edir. Belə ki, kənd təsərrüfatında yun, pambıq, barama, gön-dəri istehsalının inkişafı elə yüngül sənayenin inkişafı



cümlədən geyim istehsalında bütün illərdə artma qeydə alınmışdır. Toxuculuq sənayesi üzrə 2012-ci və 2015-ci ildə 5,6% və 34% azalma, digər illərdə artım baş vermişdir. Dəri və dəri məmulatları və ayaqqabı istehsalında 2014-2016-cı illərdə azalma müvafiq olaraq 1,8%; 46,1% və 63,2% təşkil etmiş, 2012 və 2013-cü illərdə isə artım– 1,1% və 0,2% təşkil etmişdir. Sənaye məhsullarının istehsalçı qiymətləri indeksləri cədvəl 4 – də verilmişdir.

**Cədvəl 4.**

**Sənaye məhsullarının istehsalçı qiymətləri indeksləri, əvvəlki ilə nisbətən, faizlə**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Bütün sənaye | 104.5 | 96.1 | 94.9 | 96.1 | 95.6 |
| Emal sənayesi | 101.3 | 102.0 | 115.7 | 130.5 | 131.8 |
| Toxuculuq sənayesi | 94.4 | 105.2 | 105.0 | 66.0 | 172.2 |
| Geyim istehsalı | 110.1 | 107.0 | 102.7 | 123.3 | 173.9 |
| Dəri və dəri məmulatları, ayaqqabıların istehsalı | 101.1 | 100.2 | 98.2 | 53.9 | 36.8 |

Mənbə: Sənayenin statistikası, Dövlət Statistika Komitəsinin məlumatları., Bakı-2017.

Hər bir ölkə daxili tələbatını ödəməklə yanaşı ixrac yönümlü istehsalın artırılmasına xüsusi diqqət yetirir. Bu, bir tərəfdən istehsal müəssisələrinin gəlirlərinə, həm də ölkəyə valyuta daxil olmalarının həcminə müsbət təsir göstərən amillərdir. Yüngül sənaye məhsullarının ixracını həyata keçirmək üçün dünya bazarlarında rəqabət apara biləcək istehsalın təmin olunması ən vacib şərtlərdəndir. İxrac yönümlü istehsala nail olmağa çalışan ölkələr öz məhsullarını dünya bazarlarına çıxarmaqla daim ixrac potensiallarını inkişaf etdirməyə səy göstərirlər. Təbii ki, bu prosesə başlamazdan əvvəl daxili tələbata uyğun ölkə sənayesini inkişaf etdirmək əsas hədəf kimi qarşıya qoyulur.

Araşdırmalar göstərir ki, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə istiqamətli inkişaf strategiyalarını mənimsəyən ölkələr daha böyük inkişaf səviyyəsi ortaya qoymuşlar. Konkret desək, xarici ticarətin əhatə dairəsi artdıqca onun iqtisadiyyata təsir səviyyəsi də müsbət mənada güclənir.

Təhlil göstərir ki, istehsal indeksi bütün sənaye üzrə 2012; 2014 və 2016-cı illərdə müvafiq olaraq 2,3%; 0,7% və 0,5%% azalmış, 2013-cü ildə 1,8%, 2015-ci ildə 2,4% artmışdır. Emal sənayesində tədqiqatın aparıldığı bütün illərdə artım müşahidə edilir – 5,4%; 5,8%; 2,2%; 7% və 1%. Toxuculuq sənayesində istehsal indeksi 2012-ci ildə 60,2%, 2014-cü ildə 5,2%, 2016-cı ildə 260,9% artmışdır. 2013 və 2015-ci illərdə bu göstəricidə azalma qeydə alınmışdır. Geyim istehsalında da oxşar vəziyyət baş vermişdir. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsal indeksi 2012 və 2015-ci illərdə müvafiq olaraq 50% və 3% artmış, digər illərdə azalmışdır. Sənaye istehsalının indeksləri cədvəl 3-də verilmişdir.

**Cədvəl 3.**

**Sənaye istehsalının indeksləri, əvvəlki ilə nisbətən %-lə**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Bütün sənaye üzrə | 97.7 | 101.8 | 99.3 | 102,4 | 99.5 |
| Emal sənayesində | 105.4 | 105.8 | 102.2 | 107,0 | 101.0 |
| Toxuculuq sənayesində | 160.2 | 76.2 | 105.2 | 44,8 | 260.9 |
| Geyim istehsalında | 118.5 | 90.9 | 134.5 | 55,8 | 141.0 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalında | 150.0 | 93.3 | 59.0 | 103,0 | 68.2 |

Mənbə: Sənayenin statistikası, Dövlət Statistika Komitəsinin məlumatları, Bakı-2017.

Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik konsepsiyasında əsas yerlərdən birini də qeyd edildiyi kimi xammal istehsalçıları ilə qarşılıqlı iqtisadi əlaqələr tutur. Xammal istehsalını həyata keçirən həmin sahələr müəssisələr əksər hallarda yüngül sənaye müəssisələri xammalın qiymətini əvvəlcədən sövdələşmə əsasında müəyyən edirlər. Belə şəraitdə həm xammalın əldə edilməsində, həm də onun emalında qarşılıqlı iqtisadi maraqlar təmin olunmağa çalışılır. Bəzi hallarda emal müəssisələrinin xammalın əldə edilməsində inhisarçı mövqeyini müşahidə etmək mümkündür.

Ona görə də müəssisələrin rəqabət strategiyasında xammal istehsalı və emalı müəssisələri arasında qarşılıqlı münasibətlərin hər iki tərəfin maraqlarına uyğun qurulması vacib məsələlərdən biri kimi önə çəkilir. Bu münasibətlərin inkişafında isə qiymət amili xüsusi rol oynayır.

Araşdırmalar göstərir ki, sənaye sahələri üzrə istehsalçı qiymətləri indeksləri bütün sənaye üzrə 2013-2016-cı illərdə əvvəlki ilə nisbətən azalmış, 2012-ci ildə 4,5% artmışdır. Emal sənayesində, o



eyni zamanda, kənd təsərrüfatında istehsal olunan məhsulların bazarının inkişafı deməkdir. Demək sahələrin inkişafı onların qarşılıqlı əlaqələrinin inkişafından bilavasitə asılıdır. Qeyd olunan məhsulların kənd təsərrüfatında istehsal dinamikası qrafik 1-də.




**Şəkil 1. Kənd təsərrüfatında xammal məhsullarının istehsal dinamikası.**

Statistik məlumatların təhlili göstərir ki, kənd təsərrüfatına göstərilən diqqət və qayğı nəticəsində pambıq və barama istehsalı 2016-cı ildə əvvəlki illərlə müqayisədə bir neçə dəfə artmışdır. Yun istehsalında isə 1,8% azalma baş vermişdir. Qeyd edək ki, xammal istehsalının artırılması yüngül sənayenin inkişafında mühüm rol oynamaqla bərabər ölkənin sosial-iqtisadi inkişafında da xüsusi əhəmiyyətə malikdir. Yerli xammalın inkişafı həmdə müəssisələrimizi əlavə xərclərdən azad etməklə rəqabət üstünlüyü əldə etmələrinə şərait yaradır.

İqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənayedə də rəqabət müəssisələrin iqtisadi artımının, istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılmasının, istehsalatda elmi-texniki tərəqqinin tətbiqinin, istehsal xərclərinin azaldılmasının və mənfəətin artırılmasının, eləcə də istehsal və emal müəssisələri arasında qarşılıqlı iqtisadi münasibətlərin inkişafının stimullaşdırıcı amillərindəndir. Bazarda rəqabətin mövcudluğu istehsalçılara daim mənfəətlərini

artırmaq üçün əmtəə istehsalı xərclərini azaltmağa məcbur edir. Odur ki, rəqabət strategiyaları əsasında qeyd edilənlər nəzərə alınmaqla bazar şəraitinə uyğunlaşdırılan tədbirlərin müəyyənləşdirilməsində tələbin təmin edilməsi, innovasiyaların tətbiqi, sosial və iqtisadi şəraitin dəyişməsi və s. əsas məsələlərdən hesab edilir. Bu baxımdan rəqabət strategiyalarının hazırlanması uzunmüddətli və səmərəli nəticələrə hesablanan vacib tədbirlərdəndir.

Elmi-texniki tərəqqinin inkişafı, iqtisadi proseslərə qloballaşmanın təsiri iqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənayedə də rəqabətqabiliyyətli məhsul istehsalını şərtləndirməkdədir. Bu məqsədlə innovasiyaların tətbiqinin stimullaşdırılması vacib məsələlərdən hesab edilir. Ümumiyyətlə, araşdırmalar göstərir ki, yüngül sənaye müəssisələrində rəqabətqabiliyyətliliyə çoxsaylı amillər təsir edir. Müəssisələr səviyyəsində rəqabət qabiliyyətlilik konsepsiyasının əsaslandığı başlıca istiqamət resurslardan səmərəli istifadəyə söykənir. İnsan resursları, təbii resurslar, elmi və informasiya potensialı, maliyyə resursları və infrastruktur sahələri də yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətlilik konsepsiyasının tərkib hissəsidir. Bu şərtlər daxilində rəqabət üstünlüyünün əldə edilməsi müəssisələrin onlardan istifadəsinin səmərəliliyindən, amillərin məhsulların dəyərini dəyişməyə qabil olan texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətlilik amillərinin inkişafından bilavasitə asılıdır. İnsan resursları və təbii resurslar yüngül sənaye müəssisələrinin fəaliyyəti ilə bağlı olmasa da digər amillər - maliyyə resursları və infrastruktur sahələrinin inkişafı məhz müəssisələrin təsərrüfat fəaliyyətinin nəticələrinə söykənir. Bu məsələlər isə öz növbəsində daxili və xarici investisiya qoyuluşları ilə bilavasitə bağlıdır.

Yüngül sənaye sferasında investisiya qoyuluşlarının təhlili göstərir ki, toxuculuq sənayesində əsas kapitala yönəldilən investisiyaların həcmində 2015-ci ildə 2014-cü illə müqayisədə azalma baş versə də, 2012-ci ilə nisbətən 17,9 dəfə artım qeydə alınmışdır. İnvestisiya qoyuluşları toxuculuqda yalnız daxili resurslar hesabına formalaşmışdır. Geyim istehsalına daxili investisiya hesabına yönəldilən vəsaitdə elə bir ciddi dəyişiklik müşahidə olunmur. Belə ki, müqayisənin aparıldığı 2016-cı ildə 2015-ci illə müqayisədə 0,9% artım baş vermişdir. Dəri, dəridən məmulatlar və ayaqqabıların istehsalı üzrə 2015-ci ildə 8,8 milyon manat, 2012-ci ildə isə 1,6 milyon manat investisiya qoyulmuş, bu vəsaitin hamısı daxili ehtiyatlardan qaynaqlanmışdır Azərbaycan Respublikasında yüngül sənaye üzrə əsas kapitala yönəldilən investisiyaların dinamikası cədvəl 2-də verilmişdir.



**Cədvəl 2.**

**Azərbaycan Respublikasında yüngül sənaye üzrə əsas kapitala yönəldilən investisiyalar, mln. manat**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Toxuculuq sənayesi | 5,7 | 10,4 | 38,8 | 10,2 | - |
| xarici investisiyalar | 0,0 | 0,0 | 0,0 | 0,0 | - |
| daxili investisiyalar | 5,7 | 10,4 | 38,8 | 10,2 | - |
| Geyim istehsalı | 0,0 | 0,0 | 9,0 | 10,4 | 10,5 |
| xarici investisiyalar | 0,0 | 0,0 | 0,0 | 0,0 | - |
| daxili investisiyalar | 0,0 | 0,0 | 9,0 | 10,4 | 10,5 |
| Dəri, dəridən məmulatlar və ayaqqabıların istehsalı | 1,6 | 0,0 | 0,0 | 8,8 | - |
| xarici investisiyalar | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| daxili investisiyalar | 1,6 | 0,0 | 0,0 | 8,8 | 0,0 |

Mənbə: Azərbaycanın Statistik Göstəriciləri, Dövlət Statistika Komitəsi., Bakı-2017.

Yüngül sənaye müəssisələrinin inkişaf strategiyasında rəqabətlilik qabiliyyətinin səviyyəsini, rəqabətin inkişafını, mərhələlərdən hər birinin hərəkətverici qüvvəsini müəyyən edən daxili amillərin təhlilinə xüsusi önəm verilir. Bu baxımdan daxili rəqabət xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlar isə nəticəsini rəqabətqabiliyyətli istehsalda büruzə verir. Bu baxımdan yüngül sənaye müəssisələrinin fəaliyyətində əsas göstəricilərdən biri kimi istehsal indeksinə xüsusi diqqət yetirilməlidir (şəkil 1.).




**Şəkil.1. Respublikanın sənaye müəssisələrində istehsal indeksi, əvvəlki ilə nisbətən %-lə.**